Mədəni-maarif.-2005.-№3






**Kiçik bufetdə cəmisi 5 adam var idi. Ortadakı stolun ətrafında əyləşmiş üç nəfər dəmiryolçu, piştaxtanın arxasında dayanmış bufetçi və küncdə oturmuş eynəkli arıq oğlan...**

Dəmiryolçular yavaş-yavaş yeyir və hündürdən söhbət edirdilər. Eynəkli oğlansa tez-tez onlara baxır və qarşısındakı kağızlara nə isə yazırdı.

Birdən bufetçi onun yazdığını gördü və ağappaq ağardı. "Bu da onlardandır",-deyə ürəyindən keçirdi. "Onlar" deyəndə bir ay bundan qabaq onu bərk-bərk çək-çevirə salmış yoxlama briqadasını nəzərdə tuturdu.

Doğrudan da kişini yamanca incitmişdilər. İşdən qovulmaq, bəlkə də məhkəməyə verilmək qorxusu vardı. Amma zirək tərpəndiyindən "axırıncı xəbərdarlıq edilməklə" yaxasını qurtarmışdı.

İndi fənd işlətmək, işin uzanmasına mane olmaq fikrinə düşdü. Eynəkli oğlanın stoluna yaxınlaşdı və mülayim səslə soruşdu:

-Nə yemək istəyirsiniz? İştahınız nə çəkir?

Cavab gözləmədən sadalayıb tökdü:

-Təzə sosiskamız var, qızardılmış toyuq var, göy-göyərti də varımızdır. Sizin üçün sərin pivə də tapılar. Başqa şeylər də öz qaydasında. Şampan, konyak...

Oğlan mızıldandı:

-Mən yemək istəmirəm. Ancaq... bir az

sosiska, bir də limonad verin.

Bufetçi bir anda stolun üstünə müxtəlif yeməklər düzdü. Bir şüşə də konyak gətirdi. İki kiçik stəkanda konyak süzdü. Öz stəkanını yuxarı qaldırıb dedi:

-Tanış olaq, mənim adım Cəfərdir.

Onsuz da bu dəzgaha təəccüb qalmış oğlan qeyri-ixtiyarı stəkanını qaldırdı, adını dedi:

-Rəhman.

Cəfər davam etdi:

-Elə isə içək tanışlığımızın sağlığına. Arzu edək ki, bu birinci və axırıncı olmasın. O stəkanı başına çəkdi. Üstündən bir az yeyib üzünü Rəhmana tutdu:

-Sən də iç!..

Rəhman içdi.

Stəkanlar ikinci dəfə də boşaldı...

***

Cəfər ikinci konyakı aça-aça dilləndi:

-Mərifətli adama oxşayırsan. Mən ölüm, o yazdıqlarını at getsin. Bilirsən, buradakı şeylərin bəzisi fakturada yoxdur. Sənin kimi əzizlərin yanında xəcalətli qalmamaq üçün özümüz təşkil edirik. Bunu yazıb aləmə bildirmək nə lazımdır? Peşiman olmazsınız...

İçkinin təsirindən onsuz da rəngi qaralmış Rəhman az qala qışqıra-qışqıra:

-Siz nə danışırsınız? Mən yazdıqlarımı niyə atmalıyam? Axı onlar mənim beş illik zəhmətimin yekunu olacaqdır,-dedi.

-Elə gözün məni ha görməyib. O qədər qəzetə vurulası adamlar var ki... Axı, mənim bir çətən külfətim var.

Rəhmanın gözləri kəlləsinə çıxdı:

-Siz nə deyirsiniz? Qəzet nədir?

-Necə bəyəm, bəs sən müxbir deyilsən?

-Yox, canım, nə müxbir, nə zad. Adicə tələbəyəm. Sizin yerli danışıq xüsusiyyətlərinə aid diplom işi yazıram. Bunlar da topladığım materiallardır.

Cəfər əvvəlcə qızardı. Sonra rəngi özünə gəldi və ikinci konyak şüşəsini aparıb yerinə qoydu.

***Adilxan Bayramov***

**"Yeni Marneuli" qəzeti-22 iyun 1978- ci il**